

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 22 aprel 2026-cı il №26 (3028) https://mod.gov.az Qiymətı 30 qəpik


## "Beynəlxalq təlimdə iştirakımız gələcək xidmətimiz üçün uğurlu təcrübədir"



***Qardaş Türkiyə Respublikasının Konya şəhərində keçirilən "Anadolu Ankası-2026" ("Anatolian Phoenix-2026") beynəlxalq axtarış-xilasetmə təlimi bu il də geniş miqyası, mürəkkəb ssenariləri və yüksək təşkilatçılıq səviyyəsi ilə diqqət çəkdi. Müxtəlif ölkələrin hərbi qulluqçularını bir araya gətirən beynəlxalq təlim müasir dövrdə döyüş şəraitində axtarış-xilasetmə əməliyyatlarının icrası üzrə qabaqcıl təcrübələrin tətbiq olunduğu əsas platformalardan biri kimi qiymətləndirilir.***

Uzun illərdir təşkil olunan "Anadolu Ankası" təlimi yalnız regional deyil, beynəlxalq səviyyədə də nüfuz qazanaraq, hərbi əməkdaşlığın mühüm elementinə çevrilib.

Təlim NATO standartlarına uyğun planlaşdırılır və icra edilir ki, bu da iştirakçı ölkələrin qüvvələri arasında operativ koordinasiyanın və qarşılıqlı fəaliyyətin yüksək səviyyədə qurulmasına imkan yaradır. Xüsusilə döyüş şəraitində axtarış-xilasetmə - CSAR (Combat Search and Rescue) əməliyyatlarının praktiki tətbiqi bu təlimin əsas fərqləndirici xüsusiyyətlərindən biridir.

Təlimin məqsədi yalnız şərti qəzaya uğramış pilotların xilas edilməsi ilə məhdudlaşmır. Burada əsas diqqət əməliyyatların planlaşdırılması, risklərin düzgün qiymətləndirilməsi, real vaxt rejimində qərarvermə və müxtəlif bölmələr arasında dəqiq koordinasiyanın təmin olunmasına yönəldilir. Bu baxımdan "Anadolu Ankası-2026" iştirakçılar üçün həm taktiki, həm də strateji düşüncə baxımından ciddi sınaq meydanıdır.

**(Ardı 5-ci səhifədə)**

## Ötən həftə 1455 hektardan çox ərazi mina və partlamamış hərbi sursatlardan təmizlənib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən aprelin 13-19-da icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumat açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən həftə Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 62, tank əleyhinə 17 mina və 460 digər partlayıcı sursat aşkarlanaraq zərərsizləşdirilib. 1455,4 hektar ərazi mina və partlamamış hərbi sursatlardan təmizlənib.




## Hərb tariximizin görkəmli sərkərdəsi



Azərbaycan zəngin hərb tarixində elə şəxsiyyətlər yetişdirib ki, onların adı yalnız bir dövrün deyil, bütövlükdə hər bir zamanın simvoluna çevrilib. Belə nadir şəxsiyyətlərdən biri də dünya hərb tarixində "Artilleriyanın Allahı" kimi tanınan görkəmli sərkərdə general-leytenant Əlağa Şıxlinskidir. Onun həyat yolu, hərbi fəaliyyəti və elmi irsi bu gün də Azərbaycan Ordusunun zabitləri üçün örnək, Vətənə xidmət yolunda isə yorulmaz bir bələdçidir.

Əlağa İsmayıl oğlu Şıxlinski 1865-ci il aprelin 23-də Qazax rayonunun Aşağı Salahlı kəndində anadan olub. O, hərbçi ailəsində böyüyüb, kiçik yaşlarından Vətənə sədaqət, şərəf və ləyaqət kimi ali dəyərləri özündə birləşdirib. Bu ali dəyərlər onun xarakterinin formalaşmasında mühüm rol oynayıb, gələcəkdə böyük sərkərdə kimi yetişməsinə zəmin yaradıb.

**(Ardı 2-ci səhifədə)**

## Hərbi vəzifəlilərlə təlim toplanışı başlayıb



Müdafiə naziri general-polkovnik Zakir Həsənov tərəfindən cari il üçün təsdiq olunmuş hazırlıq planına əsasən, Xüsusi Təyinatlı Qüvvələrin "N" hərbi hissəsində bir qrup hərbi vəzifəlilərin cəlb olunması ilə keçirilən növbəti təlim toplanışı başlayıb.

Müdafiə Nazirliyi xəbər verir ki, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ilə birgə tədbirlər çərçivəsində keçirilən toplanışın ilkin mərhələsində şəxsi heyətin müvafiq qeydiyyat işləri aparılıb. Həkim müayinəsindən keçmiş hərbi vəzifəlilərə hərbi geyim və digər zəruri təminat vasitələri verilib.

Ehtiyatdan çağırılmış hərbi vəzifəlilərə təlim toplanışı müddətində Azərbaycan Ordusunun arsenalında olan silah və hərbi texnikalardan istifadə qaydaları, müasir dövrün tələblərinə uyğun döyüşaparma və özünümüdafiə üsulları öyrədiləcək, həmçinin real döyüş şəraitinə uyğun taktiki hazırlıq məşğələləri və digər təlimlər keçiriləcək.

Aprelin 28-nə qədər keçiriləcək təlim toplanışının əsas məqsədi iştirakçıların hərbi hazırlığının və nəzəri biliklərinin artırılması, eləcə də praktiki vərdişlərinin təkmilləşdirilməsidir.

## Naxçıvanda gənclərin "Hədəf-2026" təlimi reallaşıb

"Naxçıvan" Mərkəzi Təlim Mərkəzində gənclərin iştirakı ilə "Hədəf" atış təlimi keçirilib. Naxçıvan Əlahiddə Ümumqoşun Ordu ilə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı əsasında reallaşan təlimdə onlayn qeydiyyatdan keçmiş 40 gənc iştirak edib.





**(Ardı 4-cü səhifədə)**

# Voleybol üzrə "Ordu" komandası ikinci yeri tutub





*Müdafiə Nazirliyi xəbər verir ki, Azərbaycan Voleybol Federasiyasının təşkilatçılığı ilə keçirilən kişilər arasında Azərbaycan Yüksək Liqasının final mərhələsi başa çatıb. Həlledici görüşdə Fövqəladə Hallar Nazirliyinin "Xilasedici" və Müdafiə Nazirliyinin "Ordu" komandaları qarşılaşıblar.*






Müdafiə Nazirliyinin rəhbər heyətinin də izlədiyi final oyunu gərgin və maraqlı idman mübarizəsi ilə yadda qalıb. Hər iki komanda oyun ərzində yüksək səviyyəli çıxış nümayiş etdirərək qələbə uğrunda əzmkarlıqla mübarizə aparıb. Oyunun ilk setində qalib gələn "Ordu" komandası növbəti setlərdə məğlub olaraq yarışı ikinci pillədə başa vurub.

Qeyd edək ki, finala yüksələn hər iki komanda Avrokubok yarışlarında iştirak etmək hüququ qazanıb.

Sonda qalib komandaya kubok, digər mükafatçılara isə medallar təqdim olunub.

*Hərb xadimlərimiz*

# Hərb tariximizin görkəmli sərkərdəsi



(Əvvəli 1-ci səhifədə)

O, erkən yaşlarından elmə və hərb sənətinə xüsusi maraq göstərib. Onun əsas məqsədi zabit olmaqla yanaşı, hərb sənətini dərindən mənimsəmək, bu sahədə yeniliklər etmək idi. Bu məqsədlə də dövrünün ən nüfuzlu hərbi məktəblərində təhsil almış və yüksək nəticələr əldə etmişdi.

1883-cü ildə Əlağa Şıxlinski öz təhsilini Leninqradda (indiki Sankt-Peterburq) Mixaylovski Artilleriya Məktəbində davam etdirmişdir. O, həmin məktəbdə öz savadı ilə özünü göstərə bilmişdi. Əlağa Şıxlinskinin həyatında artilleriya xüsusi yer tuturdu. O, bu sahəni yalnız texniki istiqamət kimi deyil, döyüşün taleyini həll edən əsas qüvvələrdən biri kimi qiymətləndirirdi. Təhsil illərində qazandığı nəzəri bilikləri praktiki bacarıqlarla birləşdirən gənc zabit qısa müddətdə özünü peşəkar hərbçi kimi təsdiqləmişdi. Onun artilleriya sahəsinə olan böyük marağı sonradan elmi və praktiki nailiyyətlərə çevrilmişdi. Əlağa Şıxlinski atəşin idarə olunması, hədəfin dəqiq müəyyənləşdirilməsi və artilleriya bölmələrinin koordinasiyası sahəsində mühüm yenilikləri irəli sürmüşdü.

1886-cı il avqustun 11-də Ə.Şıxlinski məktəbi "podporuçik" rütbəsi almaqla birinci dərəcə ilə bitirib. Xidmətinin birinci ilində ilk pedaqoji təcrübəsini qazanıb. Əvvəlcə artilleriya briqadasının tədris komandasının müəllimi, sonra isə briqada komandasının rəisi olmuşdu. O, özünü parlaq artilleriya bilicisi, yaxşı təşkilatçı, bacarıqlı müəllim kimi göstərmişdi.

1905-ci ildə başlayan Rus-Yapon müharibəsi zamanı Port-Arturun müdafiəsi Əlağa Şıxlinskinin peşəkar hərbçi kimi formalaşmasında mühüm rol oynamışdı. Bu döyüşlər onun həm sərrast topçu, həm də cəsur zabit kimi tanınmasında həlledici mərhələ olmuşdu. O, Port-Arturun müdafiəsinin qəhrəmanı kimi məşhurlaşdı. Port-Artur qalası uğrunda gedən ağır və qanlı döyüşlərdə Ə.Şıxlinski artilleriya bölmələrinin fəaliyyətini yüksək dəqiqliklə təşkil etmişdi. Tanınmış hərbi tarixçi, general-mayor İ.Krupçenko sonralar yazırdı: "Yapon hücumlarının dəf edilməsində rus artilleriyaçıları böyük rol oynayırdılar. Onlar cəsarətlə topları qabağa çəkərək dəqiq nişangahla birbaşa karteçlə yaponlara böyük zərbə yetirirdilər".

Sonralar Şıxlinski yazırdı: "Mən həmişə Port-Artur epopeyasının iştirakçısı olduğumu fəxrlə xatırlayıram". Ə.Şıxlinski Port-Artur müharibəsi zamanı yaponların basqınını dəf etməkdə fərqləndiyi üçün "İgidliyə görə" medalı və üstü yazılı Qızıl qılıncla təltif olunub.

Əlağa Şıxlinskinin hərbi sahədə olan istedadı xüsusilə Birinci Dünya müharibəsi illərində özünü parlaq şəkildə göstərmişdi. O, mürəkkəb döyüş şəraitində belə ən düzgün qərarları verməyi bacarırdı. Onun rəhbərliyi ilə artilleriya bölmələri düşmənə dəqiq və sarsıdıcı zərbələr endirən, döyüşlərin taleyini dəyişdirən əməliyyatlar həyata keçirirdi. Ə.Şıxlinskinin tətbiq etdiyi taktiki yeniliklər sayəsində artilleriya yalnız dəstək qüvvəsi olmaqdan çıxaraq əsas hücum vasitələrindən birinə çevrilmişdir. Məhz bu uğurları ona "Artilleriyanın Allahı" kimi böyük bir ad qazandırmışdı. Bu şərəfli ad onun hərbi istedadının, peşəkarlığının və yenilikçi düşüncəsinin ən yüksək qiyməti idi.



1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yaradıldıqdan sonra Ə.Şıxlinski ordu quruculuğu sahəsində fəal iştirak etmişdi. O, gənc dövlətin silahlı qüvvələrinin təşkili, onun strukturlaşdırılması və peşəkar zabit kadrlarının hazırlanması sahəsində mühüm xidmətlər göstərmişdi. Onun zəngin hərbi təcrübəsi və təşkilatçılıq bacarığı qısa müddətdə ordunun döyüş qabiliyyətinin artırılmasına imkan yaratmışdı. Ə.Şıxlinski milli ordu quruculuğunun əsas simalarından biri kimi tarixə düşmüşdü. O, yüksək mənəvi keyfiyyətləri ilə seçilən bir sərkərdə idi. Ə.Şıxlinski zabit şərəfini hər şeydən üstün tutur, tabeliyində olan əsgərlərə qayğı ilə yanaşırdı. Onun rəhbərliyi ilə xidmət edənlər onu yalnız komandan kimi deyil, həm də ədalətli və müdrik insan kimi qiymətləndirirdilər.



Ə.Şıxlinski Azərbaycan hərb tarixinin parlaq simalarından biri olmaqla yanaşı, dünya hərb elminə də mühüm töhfələr vermiş nadir şəxsiyyətlərindəndir. Onun ömür yolu və hərbi fəaliyyəti sübut edir ki, böyük sərkərdə olmaq üçün həm cəsarət, həm dərin bilik, strateji düşüncə və Vətənə sonsuz sevgi lazımdır. Böyük sərkərdənin adı Azərbaycanın hərb tarixində qürurla yaşayır və əbədi yaşayacaq.

Bu gün Azərbaycan Ordusu güclü, peşəkar və müasir bir ordu kimi inkişaf etməklə davam edir. Bu uğurun təməlində Ə.Şıxlinskinin qoyduğu ənənələr dayanır. Onun hərbi irsi peşəkar zabit kadrlarının hazırlanmasında, taktiki düşüncənin formalaşmasında və vətənpərvərlik ruhunun gücləndirilməsində mühüm rol oynayır. Ə.Şıxlinskinin hərbi fəaliyyəti Azərbaycan əsgəri üçün bir həyat - sədaqət, şərəf və peşəkarlıq məktəbidir.

**Kifayət ƏLİYEVA**
**"Azərbaycan Ordusu"**

# Türkiyənin Milli Müdafiə Universitetinin nümayəndə heyəti ölkəmizdə səfərdədir





Azərbaycan Respublikası müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev ölkəmizdə səfərdə olan Türkiyə Milli Müdafiə Universitetinin rektor müavini professor Talat Canbolatın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Müdafiə Nazirliyi xəbər verir ki, türkiyəli qonaqlar əvvəlcə Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin və görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarlarını, həmçinin Şəhidlər xiyabanı və Türk Şəhidliyini ziyarət edərək, gül dəstələri qoyub, xatirələrini ehtiramla yad ediblər.

Azərbaycan Ordusunun Baş Qərargahında keçirilən görüşdə qonaqları salamlayan general-polkovnik K.Vəliyev Azərbaycan-Türkiyə münasibətlərinin tarixi köklərə söykəndiyini vurğulayaraq, bu əlaqələrin digər sahələrdə olduğu kimi, hərbi təhsil sahəsində də inkişafının vacibliyini qeyd edib.

Bildirilib ki, hərbi təhsil sahəsində qarşılıqlı təcrübə mübadiləsi hərbi qulluqçuların bilik və bacarıqlarının artırılmasında mühüm rol oynayır.

Səmimi qəbula və göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirən professor T.Canbolat hərbi təhsil sahəsində əməkdaşlığın yüksək səviyyədə olduğunu qeyd edib.



Görüşdə hərbi təhsil sahəsində görülən birgə işlərin cari vəziyyəti və inkişaf perspektivləri, həmçinin qarşılıqlı maraq doğuran bir sıra mövzulara dair geniş fikir mübadiləsi aparılıb.

## “DSA 2026” sərgisində Azərbaycan istehsalı olan müdafiə təyinatlı məhsullar haqqında məlumat verilib

Azərbaycanın müdafiə sənayesi nazirinin müavini Mehman Baxışov Malayziyanın Kuala-Lumpur şəhərində keçirilən "DSA 2026" 19-cu Asiya Müdafiə Xidmətləri Sərgisi çərçivəsində aprelin 21-də Türkiyənin Müdafiə Sənayesi Komitəsinin sədrinin müavini İhsan Kaya və qardaş ölkənin "Makina ve Kimya Endüstri" şirkətinin baş direktoru İlhami Keleş ilə görüşüb.




Bu barədə AZƏRTAC-a Müdafiə Sənayesi Nazirliyindən məlumat verilib.

Bildirilib ki, görüşlərdə müdafiə sənayesi üzrə qarşılıqlı fəaliyyətin daha da genişləndirilməsi, silah və hərbi texnika istehsalı və yeni texnoloji həllərin tətbiqi istiqamətlərində fikir mübadiləsi aparılıb. Bununla yanaşı, qabaqcıl təcrübələrin paylaşılması, innovativ yanaşmaların tətbiqi və elmi-texniki əməkdaşlığın gücləndirilməsi ilə bağlı müzakirələr edilib. Tərəflər mövcud əməkdaşlıq mexanizmlərinin daha da təkmilləşdirilməsinin vacibliyini vurğulayaraq, uzunmüddətli və qarşılıqlı faydalı tərəfdaşlığın inkişafı üçün səylərin davam etdirilməsinin önəmini qeyd ediblər.

Sərgi çərçivəsində Malayziyanın Kedah ştatının şahzadəsi Tengku Sarafudin Badlişah, Türkiyənin milli müdafiə nazirinin müavini Musa Heybət və Malayziya müdafiə nazirinin müavini Adli bin Zahari "Azərsilah" Müdafiə Sənayesi Holdinqi" Qapalı Səhmdar Cəmiyyətinin stendini ziyarət ediblər. Onlara Azərbaycan istehsalı olan müdafiə təyinatlı məhsullar haqqında ətraflı məlumat verilib.




### Medallı igidlərimiz

## Qürurlu xidmətin bariz nümunəsi

Vətənə sədaqət, xidmətə bağlılıq və məsuliyyət hissi hər bir hərbçinin əsas keyfiyyətləridir. Bu keyfiyyətlər isə birdən-birə formalaşmır, insanın keçdiyi həyat yolu, aldığı tərbiyə və qazandığı təcrübə ilə yoğrulur. Məhz bu amillər gələcəkdə onun necə bir zabit olacağını müəyyənləşdirir.

İgidlik təsadüfən yaranmır, onun arxasında illərin zəhməti, formalaşan xarakter və sınaqlardan keçmiş bir ömür yolu dayanır. Hər bir cəsur oğulun arxasında onu bu mərhələyə gətirən həyat hekayəsi, aldığı tərbiyə və qazandığı təcrübə dayanır.



Mayor Elçin Xeybər oğlu Əliyev Vətənə bağlı olan, işini vicdanla görən zabitlərdən biridir. O, 17 yanvar 1990-cı ildə Ucar rayonunda anadan olub. Hələ məktəb illərindən hərbi peşəyə böyük maraq göstərib. 2007-ci ildə Ucar rayon 5 saylı orta məktəbi bitirdikdən sonra həyatını hərb sahəsinə həsr etmək qərarına gəlir və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (İndiki Heydər Əliyev adına Hərbi İnstitut) daxil olur.

Hərbi təhsilini uğurla başa vurduqdan sonra Azərbaycan Ordusunda xidmətə başlayan Elçin Əliyev müxtəlif hərbi hissələrdə müxtəlif vəzifələrdə çalışaraq, zəngin xidmət yolu keçib. İlk olaraq kursant kimi təhsilə başlayıb, daha sonra zabit ixtisas kursunu bitirərək, müxtəlif artilleriya və minaatan bölmələrində taqım komandiri kimi xidmət edib. Xidmət illəri ərzində onun üzərinə düşən vəzifələri yüksək peşəkarlıqla yerinə yetirməsi nəticəsində daha məsul postlara irəli çəkilib.

Mayor Elçin Əliyev müxtəlif dövrlərdə artilleriya bölmələrində komandir vəzifələrində, şəxsi heyətlə iş üzrə zabit kimi çalışıb. Daha sonra motoatıcı bölmədə də məsul vəzifələr icra edərək, şəxsi heyətin hazırlığında və döyüş qabiliyyətinin artırılmasına töhfələr verib. Onun xidmət yolu yalnız taktiki-texniki biliklərlə deyil, həm də şəxsi heyətlə iş bacarığı, liderlik keyfiyyətləri ilə seçilib.

2022-ci ildən etibarən ideoloji iş və mənəvi-psixoloji təminat sahəsində fəaliyyət göstərən zabit bu istiqamətdə də özünü doğruldub. O, hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, vətənpərvərlik ruhunun gücləndirilməsi istiqamətində əzmlə çalışıb. Hazırda isə "N" hərbi hissəsində ideoloji iş və mənəvi-psixoloji təminat üzrə vəzifədə xidmətini davam etdirir.

Xidmət etdiyi illər ərzində Elçin Əliyev bir sıra medallara layiq görülüb. O, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı, "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı, "Xocavəndin azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunub. Bu təltiflər onun hərbi xidmətə sədaqətinin, peşəkarlığının və Vətən qarşısında göstərdiyi xidmətlərinin bariz nümunəsidir.

Mayor Elçin Əliyev bu gün də Azərbaycan Ordusunda qürurla xidmət edir, qazandığı təcrübə və bilikləri gənc hərbçilərlə bölüşərək, ordumuzun güclənməsinə öz töhfəsini verir. Onun keçdiyi xidmət yolu Azərbaycan zabitinin peşəkarlığını, vətənpərvərliyini və məsuliyyət hissini aydın şəkildə əks etdirir.

Beləliklə, onun keçdiyi həyat yolu bu gün daşıdığı məsuliyyətli və şərəfli vəzifənin möhkəm təməlini təşkil edir. Bu yol bir zabitin bioqrafiyası olmaqla bərabər, həm də Vətənə sədaqətin, peşəkarlığın və əzmkar ruhun parlaq nümunəsidir. Bu isə Azərbaycan Ordusunun gücünün, ruhunun və gələcəyinin etibarlı əllərdə olduğunu bir daha sübut edir. Elçin Əliyev kimi igid oğullarımızın həyat yolu gənc nəsil üçün örnək olmaqla yanaşı, hər bir vətəndaşa Vətən qarşısında borcunu necə şərəflə yerinə yetirilməli olduğunu bir daha xatırladır. Bu isə təkcə bir insanın uğuru deyil, bütövlükdə dövlətin gücünü və xalqın milli ruhunu əks etdirən dəyərli amildir.

**Şəlalə CAMAL**
**"Azərbaycan Ordusu"**

# Ombudsman Aparatının nümayəndələri HHQ-nin hərbi hissəsində olublar





*Müdafiə Nazirliyi ilə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatı arasında imzalanan 2026-cı ilin birgə tədbirlər planına əsasən, aparatın nümayəndələri Hərbi Hava Qüvvələrinin (HHQ) "N" hərbi hissəsində olublar.*

Müdafiə Nazirliyi xəbər verir ki, nümayəndələr hərbi hissədə şəxsi heyətin təminatı, məişət və tibb məntəqəsində yaradılan şəraitlə tanış olduqdan sonra hərbi qulluqçularla görüş keçiriblər. Görüş zamanı insan hüquqlarının qorunması ilə bağlı müzakirələr aparılıb, şəxsi heyəti maraqlandıran suallar cavablandırılıb.

Eyni zamanda, şəxsi heyətə Ombudsmanın "916" Çağrı Mərkəzi barədə məlumat verilib, maarifləndirici broşürlər paylanılıb, həmçinin bir neçə hərbi qulluqçunun yazılı müraciətləri qəbul edilib.

*Gənc zabitlərimiz*

# Şərəfli xidmət yolunun yolçusu



*İnsana kimliyini xatırladan ən böyük dəyərlərdən biri Vətənə bağlılıqdır. Bu bağlılıq sadəcə sözlə ifadə olunmur, çətin anlarda göstərilən möhkəm iradə və fədakarlıqla özünü göstərir. Hər bir xalqın gücü övladlarının torpağına sahib çıxmaq əzmində gizlidir. Azərbaycan hərbçisi üçün Vətən anlayışı müqəddəsdir və bu müqəddəslik onu hər zaman önə aparır. Bu duyğu nəsildən-nəslə ötürülərək qəhrəmanlıq ənənələrini yaşadır. Bu gün də həmin ənənə davam edir, yeni nəsil hərbçilər öz şücaətləri ilə bu şərəfli yolu davam etdirirlər. Onların həyatı və xidməti gənclər üçün nümunə, gələcək üçün isə qürur mənbəyidir. Belə nümunəvi gənclərdən biri də kapitan Elvin Əsgərovdur.*

Kapitan Elvin Məhərrəm oğlu Əsgərov 17 avqust 1992-ci ildə Naxçıvan şəhərində anadan olub. O, 2010-2013-cü illərdə Heydər Əliyev adına Hərbi Liseydə, 2013-2017-ci illərdə isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (indiki Heydər Əliyev adına Hərbi İnstitut) "Silahlı Qüvvələrdə tərbiyəvi işin təşkili" ixtisası üzrə təhsil alaraq peşəkar hərbçi kimi formalaşıb. Təhsilini başa vurduqdan sonra ozamankı ön xətt hərbi hissələrindən birində leytenant rütbəsi ilə xidmətə başlayıb.

Kapitan Elvin Əsgərov deyir ki, mənim üçün Vətən sevgisi sadəcə bir söz deyil, yaşadığım hər anın mənasıdır. "Bu torpaqda doğulmuşam, bu havanı udmuşam, bu bayraq altında böyümüşəm. Mənim üçün Vətəni qorumaq seçim yox, borcdur. Vətəni sevmək onu qorumağa hazır olmaqdır. Əgər bu hiss ürəkdən gəlirsə, insan heç bir çətinlikdən qorxmur. Mənim üçün Vətən sevgisi məhz budur - sona qədər mübarizə aparmaq və geri çəkilməmək".

2020-ci ildə Lələtəpə yüksəkliyində bölük komandiri kimi xidmət edən kapitan Elvin Əsgərov Vətən müharibəsinin ilk anından döyüşlərə qatılıb. Sentyabrın 27-də İkinci Qarabağ müharibəsinin başlanması barədə əmr aldıqdan sonra onun rəhbərlik etdiyi bölük qısa müddət ərzində müdafiədən hücuma keçərək düşmənə ağır zərbələr endirib.

Kapitan Elvin Əsgərov qeyd etdi ki, illərdir Ali Baş Komandanın bu əmrini gözləyirdik. "Nəhayət, o gün gəlib çatanda hər birimizdə böyük ruh yüksəkliyi yarandı. Bu, sadəcə bir əmr deyildi, illərin həsrətinin, ədalətin bərpasının başlanğıcı idi. Biz bu anı qürur və məsuliyyət hissi ilə qarşıladıq".

Zabit komandiri olduğu bölük ilə birlikdə Cəbrayıl, Füzuli, Qubadlı və Xocavənd istiqamətlərində gedən ağır döyüşlərdə iştirak edib.

"O günlərdə qələbə əzmi hər birimizin ürəyində alov kimi yanırdı. Mən də bir zabit kimi bu hissi hər an yaşayıb şəxsi heyətə ötürürdüm. Biz bilirdik ki, qarşımızda duran yol çətin olacaq. Amma, eyni zamanda, inanırdıq ki, bu yol bizi qələbəyə aparacaq. Döyüşə girəndə qorxu yox, qərarlılıq hiss edirdik. Hər bir əsgər gözlərində eyni inamı daşıyırdı. Onları izlədikcə daha da güclənirdim", - zabit bildirdi.

Kapitan Elvin Əsgərov oktyabrın 16-da Xocavənd istiqamətində gedən qızğın döyüşlər zamanı yaralanıb. Yaralandığı anlarda ağlından keçən tək fikir silahdaşlarını tək qoymamaq və döyüşə davam etmək olub. "Çünki biz orada təkcə torpaq uğrunda yox, xalqımızın gələcəyi uğrunda vuruşurduq. Mənim üçün ən böyük qürur Vətənimə xidmət etməkdir", - kapitan Əsgərov dedi.

Hospitalda müalicə aldıqdan sonra, noyabrın 2-də yenidən döyüş meydanına qayıdaraq silahdaşlarının yanında olub.

- Əmr verilən kimi tərəddüd etmədən irəli atıldıq. Müdafiədən hücuma keçdiyimiz an hamımızın içində böyük bir dönüş baş verdi. İllərlə gözlədiyimiz an gəlib çatmışdı. Qələbə əzmi hər birimizin daxilində sarsılmaz bir inama çevrilmişdi. Biz haqq savaşının döyüşçüləri idik. Bu hiss bizə əlavə güc verirdi. Əsgərlərin heç biri geri çəkilməyi düşünmürdü. Mən də onların önündə dayanaraq nümunə olmağa çalışırdım...

Kapitan Elvin Əsgərov döyüşlərdə göstərdiyi igidliyə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Cəsur döyüşçü", "İgidliyə görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub.

Kapitan Elvin Əsgərov şərəfli xidmət yolunun yolçularındandır. Onun keçdiyi döyüş yolu və Vətənə sədaqəti hər bir gənc üçün əsl nümunədir.

**Kapitan**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**

# Naxçıvanda gənclərin "Hədəf-2026" təlimi reallaşıb





**(Əvvəli 1-ci səhifədə)**

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-ın bölgə müxbirinə bildirilib ki, təlim başlanmazdan öncə nazirliyin şöbə müdiri İlhahə Haqverdiyeva tədbirin əhəmiyyətindən danışıb, "Hədəf" və bu cür layihələrin gənclərin hərb peşəsinə marağının yüksəlməsi, onların vətənpərvərlik ruhunda formalaşması, özünümüdafiə və yeni bacarıqlara yiyələnmələri baxımından önəmli rola malik olduğunu diqqətə çatdırıb.

Təhlükəsizlik qaydaları ilə tanış olduqdan və icra olunacaq tapşırıqlar barədə məlumat verildikdən sonra gənclər təlim nöqtələrinə dəvət olunublar. İlkin mərhələdə patronların darağa doldurulması və boşaldılması, silahların texniki xüsusiyyələri, natamam sökülüb-yığılması, əl qumbaralarından istifadə və digər zəruri psoseslər iştirakçılara izah olunub, atəş tapşırığı simulyasiya edilib.

Əsas mərhələdə gənclər müxtəlif çaplı silahlardan 100 metr məsafədən hədəfə doğru praktiki atışlar icra ediblər.

Fərqlənən iştirakçılar diplomla təltif olunublar.

# “Beynəlxalq təlimdə iştirakımız gələcək xidmətimiz üçün uğurlu təcrübədir”



(Əvvəli 1-ci səhifədə)

Builki təlimdə ssenarilər daha da mürəkkəbləşdirilərək, şərti düşmən ərazisində vurulmuş hava gəmisinin ekipaj üzvlərinin axtarışı və xilas edilməsi, düşmən qruplaşmalarının mövcud olduğu zonada əməliyyatların aparılması, gecə və məhdudgörmə şəraitində fəaliyyət, eləcə də elektron mübarizə elementlərinin tətbiqi kimi komponentlər daxil edilib. Eyni zamanda, əməliyyatlara pilotsuz uçuş aparatlarının cəlb edilməsi, kəşfiyyat məlumatlarının operativ emalı və bölmələr arasında paylaşılması kimi müasir yanaşmalar da tətbiq olunub.



Təlimin hazırlıq mərhələsində iştirakçılar üçün geniş brifinqlər təşkil olundu. Bu brifinqlərdə təhlükəsizlik qaydaları, tapşırıqların mərhələləri, istifadə olunacaq texnika və avadanlıqlar, həmçinin əməliyyat rayonunun coğrafi və iqlim xüsusiyyətləri barədə ətraflı məlumatlar verildi. Planlaşdırma iclaslarında isə müxtəlif ssenarilər üzrə alternativ variantlar müzakirə olunaraq, ən optimal qərarların seçilməsi təmin edildi. Bu proses real döyüş şəraitində gözlənilməz hallara hazırlığın artırılması baxımından xüsusi əhəmiyyət daşıyır.

Praktiki mərhələdə icra olunan tapşırıqlar təlimin ən dinamik və məsuliyyətli hissəsini təşkil edirdi. Helikopterlər vasitəsilə əməliyyat zonasına daxil olan paraşüt-desant və axtarış-xilasetmə qrupları "fast rope" (sürətli eniş) üsulu ilə eniş edərək qısa müddətdə ərazidə mövqe tutdular. Şərti təhlükə mənbələri zərərsizləşdirildikdən sonra qəzaya uğramış pilotun axtarışı və təhlükəsiz şəkildə təxliyə olunması həyata keçirildi. Tapşırıqlar yüksək dəqiqlik və sürət tələb edən koordinasiyalı fəaliyyət nümunəsi kimi yadda qaldı.

Əməliyyatların uğurla icrasında aviasiya vasitələrinin rolu xüsusi vurğulanmalıdır. Su-25 hücum təyyarələri, F-16 qırıcıları və T-70 helikopterləri tərəfindən təmin edilən hava dəstəyi yerüstü qrupların təhlükəsizliyini maksimum səviyyədə təmin etdi. Hava zərbələrinin şərti olaraq tətbiqi, hava məkanına nəzarətin təşkili və qrupların irəliləyişinin müşayiət olunması əməliyyatların ümumi effektivliyini əhəmiyyətli dərəcədə artırdı. Eyni zamanda, aviayönləndiricilərin fəaliyyəti nəticəsində yer və hava qüvvələri arasında fasiləsiz əlaqə quruldu.



Azərbaycan Ordusunun nümayəndə heyəti bu təlimdə geniş tərkibdə iştirak edərək, bütün mərhələlərdə yüksək peşəkarlıq nümayiş etdirdi. Hərbi Hava Qüvvələrinin pilotları havadan dəstək tapşırıqlarını dəqiqliklə yerinə yetirdi, paraşüt-desant bölmələri çətin şəraitdə çevik fəaliyyət göstərdi, axtarış-xilasetmə xidmətinin mütəxəssisləri isə tapşırıqları yüksək hazırlıq səviyyəsində icra etdilər. Texniki heyətin fasiləsiz fəaliyyəti nəticəsində aviasiya vasitələrinin etibarlı və təhlükəsiz istifadəsi təmin olundu.




Təlim çərçivəsində keçirilən fəaliyyətlər zamanı ölkəmizi təmsil edən heyətin modern standartlara uyğun fəaliyyəti və digər ölkələrin bölmələri ilə effektiv inteqrasiyası xüsusi diqqət çəkdi. Bu isə Azərbaycan Ordusunun beynəlxalq hərbi əməkdaşlıq sahəsində qazandığı təcrübənin və uyğunlaşma qabiliyyətinin yüksək olduğunu bir daha nümayiş etdirir.

Təlim iştirakçılarının fərdi yanaşmaları isə bu prosesin nə qədər dərin və çoxşaxəli olduğunu göstərir. Polkovnik Zaur Məmmədov şəxsi heyətin hazırlıq səviyyəsinə toxunaraq qeyd etdi ki, Azərbaycan Ordusunun hərbi qulluqçuları bu təlimdə yüksək peşəkarlıq və nizam-intizam nümayiş etdirdilər. "Qarşıya qoyulan tapşırıqlar dəqiq və vaxtında icra olundu. Şəxsi heyətin fiziki və mənəvi-psixoloji hazırlığı istənilən çətin şəraitdə fəaliyyət göstərməyə imkan verir. Bu cür beynəlxalq təlimlər onların bilik və bacarıqlarını daha da inkişaf etdirir. Əldə olunan təcrübə gələcək fəaliyyətimiz üçün mühüm əhəmiyyət daşıyır".

Kapitan İman Əliyev komanda işi və texniki uyğunluq məsələlərini vurğulayaraq bildirdi ki, bu tip beynəlxalq təlimlərdə əsas çətinlik müxtəlif ölkələrin qüvvələrinin vahid mexanizm kimi işləməsidir. "Hər kəsin fərqli yanaşması olsa da, nəticədə ortaq qərar qəbul olunmalıdır. Rabitə sistemlərinin düzgün qurulması, əmrlərin vaxtında ötürülməsi və qarşılıqlı uzlaşma bu prosesin əsasını təşkil edir. Biz burada həm texniki, həm də psixoloji baxımdan daha güclü komandaya çevrilirik".

Baş leytenant Rəşad İsmayılov əməliyyatların taktiki tərəfinə toxunaraq qeyd etdi ki, bu təlimlər bizə göstərir ki, real şəraitdə uğur yalnız gücdən deyil, düzgün planlaşdırmadan və koordinasiyadan asılıdır. "Hər bir detal öncədən düşünülməlidir. Xüsusilə düşmən faktorunun mövcud olduğu ssenarilərdə hərəkətlərin dəqiqliyi həyati əhəmiyyət daşıyır. Biz burada yalnız tapşırığı yerinə yetirməyi deyil, onu ən optimal şəkildə icra etməyi öyrənirik. "Beynəlxalq təlimdə iştirakımız gələcək xidmətimiz üçün uğurlu təcrübədir".





Gizir Nazim Əliyev isə beynəlxalq təlim haqqında dedi ki, belə təlimlər insanı real əməliyyatlara hazırlayan ən vacib mərhələlərdən biridir. "Burada hər şey real şəraitə uyğunlaşdırılır, bu da bizdə məsuliyyət hissini artırır. Stressdə olan zaman düzgün qərar vermək, riskləri qiymətləndirmək və komandaya uyğun hərəkət etmək kimi bacarıqlar inkişaf etdirilir. Eyni zamanda, biz burada insan həyatının xilas edilməsinin nə qədər vacib olduğunu bir daha dərk edirik".



Təlimin yekun mərhələsində icra olunan tapşırıqlar geniş şəkildə təhlil edildi, iştirakçıların fəaliyyəti qiymətləndirildi və əldə olunan nəticələr ümumiləşdirildi. Təhlillər göstərdi ki, builki təlimdə əməliyyatların icra sürəti, koordinasiya səviyyəsi və qərarvermə mexanizmləri daha da təkmilləşdirilib.

Bağlanış mərasimində çıxış edən rəhbər heyət təlimin uğurla başa çatdığını bildirərək, iştirakçıların peşəkarlığını yüksək qiymətləndirdi. Tədbir zamanı təlimin gedişatını əks etdirən statistik məlumatlar təqdim olundu, videoçarx nümayiş etdirildi və iştirakçı heyətlər arasında qarşılıqlı hədiyyələr təqdim edildi.




"Anadolu Ankası-2026" beynəlxalq axtarış-xilasetmə təlimi bir daha sübut etdi ki, müasir dövrdə bu tip əməliyyatların uğurlu icrası yalnız texniki imkanlardan deyil, həm də yüksək hazırlıq səviyyəsindən, düzgün planlaşdırmadan və ümumən təcrübədən asılıdır. Azərbaycan Ordusunun bu təlimdə nümayiş etdirdiyi nəticələr isə onun peşəkarlıq səviyyəsinin yüksək olduğunu, şəxsi heyətin istənilən şəraitdə qarşıya qoyulan tapşırıqları layiqincə yerinə yetirməyə qadir olduğunu bir daha təsdiqlədi.

**ƏLİ ABIYEV**
**"Azərbaycan Ordusu"**

# XTQ-nin Aprel şəhidlərinin xatirəsi ehtiramla yad olunub








Xüsusi Təyinatlı Qüvvələrin (XTQ) "N" hərbi hissəsində 2016-cı ilin Aprel döyüşlərinin 10-cu ildönümü və aprel şəhidlərinin xatirəsinə həsr olunmuş anım tədbiri keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Vətən uğrunda canlarından keçən soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib, hərbi orkestrin müşayiəti ilə Dövlət Himni səsləndirilib.

XTQ komandanı, Vətən Müharibəsi Qəhrəmanı general-mayor Ələkbər Cahangirov tədbirdə çıxış edərək 2016-cı ilin Aprel döyüşlərini Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında qazanılan növbəti qələbələrin - Günnüt əməliyyatı, Tovuz döyüşləri, Vətən müharibəsi və antiterror əməliyyatını, bütövlükdə şanlı zəfərimizin başlanğıcı olduğunu qeyd edib.

Çıxışlar zamanı vurğulanıb ki, XTQ mənsubları daima ölkəmizin təhlükəsizliyi, ərazi bütövlüyü və suverenliyi naminə Ali Baş Komandanın əmrinə əsasən istənilən döyüş tapşırığını yerinə yetirməyə qadirdir və Vətən uğrunda canından keçməyə hazırdır.

Şəhidlərin ailə üzvləri və yaxınları çıxışlarında onlara göstərilən diqqət və qayğıya, eləcə də şəhidlərimizin xatirəsinin daim uca tutulduğuna görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, həmçinin Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Tədbirdə çıxış edən döyüş iştirakçıları və ictimaiyyətin nümayəndələri Aprel döyüşlərinin tarixi əhəmiyyəti, başvermə səbəbləri, Azərbaycan əsgərinin bu döyüşlər zamanı peşəkarlıq və şücaət göstərərək düşmənə sarsıdıcı zərbələr vurmasından danışıblar.

Tədbirin bədii hissəsində Aprel döyüşlərinə həsr olunan sənədli film nümayiş olunub, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistlərinin ifasında vətənpərvərlik mövzusunda musiqili kompozisiyalar nümayiş etdirilib.

Sonda şəhidlərin şərəfinə ehsan süfrəsi təşkil olunub, ruhlarına dualar oxunub.

Qonaqlara hədiyyələr təqdim edildikdən sonra xatirə şəkilləri çəkdirilib.

*Heç kim unudulmur*

# Canını Vətənə qurban verən oğul



Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində "Şəhidlər ölməz, Vətən bölünməz" adlı tədbirlər silsiləsindən Birinci Qarabağ müharibəsi şəhidi Vilayət Məhəmməd oğlu Rüstəmova həsr edilən anım mərasimi keçirildi. Anım mərasimində Müdafiə Nazirliyinin bir qrup hərbi qulluqçusu, millət vəkili, şəhidin ailə üzvləri, doğmaları, döyüş yoldaşları, müharibə veteranları, qeyri-hökumət təşkilatlarının nümayəndələri və başqa qonaqlar iştirak etdilər.

Əvvəlcə tədbirdə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Vətən uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Tədbir iştirakçıları şəhid Vilayət Rüstəmovun şərəfli döyüş və ömür yolundan bəhs edən filmə baxmağa dəvət olundular.

Qeyd edək ki, Rüstəmov Vilayət Məhəmməd oğlu 19 aprel 1943-cü ildə Kəlbəcər rayonunun Təkəqaya kəndində anadan olub. O, 1989-cu ildə könüllü olaraq, Çərəkdar kəndinin müdafiəsinə qoşulub. 1991-ci ildə Azərbaycanın milli ordu qüvvələrinin formalaşdığı vaxtlarda "N" hərbi hissəsinin tərkibində şərəfli xidmət yolu keçib. Erməni quldur dəstələrinə qarşı gecə-gündüz torpaqlarımızın müdafiəsində dayanıb. Vilayət Rüstəmov 1992-ci ildə Ağdaban döyüşlərində iştirak edib. 1993-cü il martın 27-də Çərəkdar kəndinə Ağdərə istiqamətindən edilən hücum zamanı Vilayət Rüstəmov son gülləsinə və son damla qanına qədər igidliklə vuruşaraq, Uzuntala istiqamətində şəhidlik zirvəsinə ucalıb. Döyüşlərin gərginliyi və şəraitin çətinliyi səbəbindən onun nəşini döyüş zonasından çıxarmaq mümkün olmayıb. Döyüşçü yoldaşları onu böyük ehtiram və qardaşlıq borcu ilə Kəlbəcər rayonunda, uca dağ yamacında dəfn ediblər. Təkcə bu fakt Birinci Qarabağ müharibəsinin nə qədər ağır keçdiyini, eyni zamanda, döyüş yoldaşlarının ona olan sədaqətini və hörmətini bir daha göstərir. Şəhadətindən 33 il ötsə də, xatirəsi qəlblərdə daim yaşayır.





Birinci Qarabağ müharibəsi şəhidi Vilayət Rüstəmovun xatirəsinə həsr olunmuş anım mərasimində şəhidin Vətənə əmanət qalan oğlu Eldəniz Rüstəmov çıxış edərək xalqımızın igid, vətənpərvər oğulları ilə qürur duyduğunu dedi: "Azərbaycanımızın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü naminə xalqımızın neçə-neçə igid oğlu canından keçdi. Erməni silahlı birləşmələri illərlə tarixi torpaqlarımızı işğal altında saxladılar. 44 günlük Vətən müharibəsində vətənpərvər, fədakar Azərbaycan oğulları doğma torpaqlarımızı, ata-babalarımızın qədim yurd yerlərini düşməndən azad etdilər. Şəhidlərimizin qisası erməni işğalçılarından alındı. "Qisas qiyamətə qalmadı". Həmişə atamla qürur duymuşam. Fəxr etmişəm ki, şəhid övladıyam. Atam torpaqlarımızın azadlığı uğrunda, Vətən uğrunda şəhid olub. Atamın ürəyi Vətənlə döyünüb. Ona görə də Vətənə canını qurban verib. Ölkəmizdə şəhid ailələrinə göstərilən yüksək diqqət və qayğıya görə, şəhidlərimizin adının hər zaman uca tutulmasına görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarıq".

Millət vəkili Məzahir Əfəndiyev Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun qazandığı parlaq Qələbədən və 19-20 sentyabr 2023-cü ildə uğurlu antiterror əməliyyatından danışaraq, respublikamızın ərazi bütövlüyünün və suverenliyinin tam təmin olunmasını hər zaman böyük qürur hissi ilə xatırladığını vurğuladı: "Şəhidlərimiz Vətənimizin ərazi bütövlüyü, respublikamızın suveren hüquqlarının tam təmin olunması naminə canlarından keçdilər. Qədirbilən xalqımız onların əziz xatirəsini heç zaman unutmayacaq, adları hər birimizin qəlbində əbədi yaşayacaq. Azərbaycan tarixinə yeni qəhrəmanlıq səhifələri yazan şəhidlərimizə Allahdan rəhmət diləyirəm. Məkanları cənnət olsun. Bu gün Şəhidlər xiyabanı müqəddəs and yerimizə çevrilib. Şəhidlərimiz Azərbaycanımızın xoşbəxt, firavan gələcəyi naminə döyüşdülər, canlarından keçdilər, Zəfər qazandılar".



Digər çıxış edənlər şəhid Vilayət Rüstəmovun Birinci Qarabağ müharibəsi zamanı keçdiyi şərəfli döyüş yolundan, onunla bağlı cəbhə xatirələrindən, vətənpərvər oğul kimi hər zaman şəhidliyi ilə gələcək nəsillərə örnək olmasından danışdılar. Bildirildi ki, Vilayət kimi oğulların davamçıları olan Mübarizlər, Muradlar, Samidlər, Vüqarlar, Raquflar, Poladlar, Şükürlər qarış-qarış, addım-addım, kənd-kənd tarixi torpaqlarımızı düşməndən təmizlədilər. Bu gün işğaldan azad olunmuş o ərazilərdə üçrəngli Azərbaycan Bayrağı əzəmətlə dalğalanır. Kəndlər, qəsəbələr və yaşayış məntəqələrimiz yenidən qurulur, bərpa olunur. Şuşa, Laçın, bütün Qarabağ, Şərqi Zəngəzur xalqımızın gərgin əməyi, zəhməti nəticəsində dirçəlir. İllərdir ki, doğma yurd həsrəti çəkən həmvətənlərimiz artıq elinə, obasına geri dönürlər.

Anım mərasiminin sonunda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivi vətənpərvərliyi, qəhrəmanlığı, Böyük Zəfərimizi tərənnüm edən, eləcə də şəhidlərimizin əziz xatirəsinə həsr olunmuş mahnılar və marşlar ifa etdi.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu: Rusiya İmperiyasının Qafqaz istilası. Kürəkçay, Türkmənçay və Gülüstan müqavilələri.**

**Suallar:**

1. Azərbaycanın Rusiya və İran arasında parçalanması. Kürəkçay müqviləsi.
2. İşğala aparan yol. Gülüstan və Türkmənçay müqavilələri.

### Azərbaycanın Rusiya və İran arasında parçalanması. Kürəkçay müqviləsi

Tarixin bütün dövrlərində xalqımız müxtəlif siyasi-hərbi münaqişələrə cəlb olunmuş, nəticədə zaman-zaman ərazilərі işğal olunmuş, insanları qətlə yetirilmişdir. Müharibələr nəticəsində xalqın minilliklər boyu formalaşmış mənəvi-dini-milli dəyərlərinə ziyan dəymiş, torpaqlarının bir hissəsi itirilmiş, Cənubi Qafqaz Rusiyaya birləşdirildikdən sonra bu proses güclənmişdir.

İran və Rusiya Azərbaycanı bölüşdürmək üçün zaman-zaman müqavilələr imzalayıblar. Burada Azərbaycanın əlverişli coğrafi mövqeyi, yeraltı və yerüstü sərvətləri ilə Qafqazda, Mərkəzi Asiyada açar rolunun oynaması xüsusi əhəmiyyət daşıyıb. Bu səbəbdən ölkəmiz hakim dünya dövlətlərinin daim maraq dairəsində, gündəmində olub və tarixin müxtəlif dönəmlərində bölgə dövlətlərini qarşı-qarşıya gətirib.

Azərbaycanda bol olan qızıl, boya, yun, ipək, pambıq, tütün, neft Rusiya imperiyasının xammal və yanacaqla təmin edə bilməsi səbəbindən bu ərazilərin işğalı həmin dövrdə gərgin olan Rusiya-Osmanlı (Türkiyə) münasibətlərində qüvvələr nisbətini rusların xeyrinə həll edə bilərdi. Cənubi Qafqazdakı mürəkkəb siyasi, iqtisadi və beynəlxalq vəziyyət Rusiyanın işğalçı planlarının həyata keçirilməsini asanlaşdırırdı.

1801-ci ilin əvvəllərində İngiltərə Qacarlar (İran) dövləti ilə siyasi və ticarət müqavilələri bağladı. Qacarlar dövləti ilə İngiltərənin yaxınlaşması Rusiya imperiyasının 1801-ci ilin 12 sentyabrında Şərqi Gürcüstanın (Kartli-Kaxetiya çarlığı) Rusiyaya birləşdirilməsi ilə nəticələndi. Şərqi Gürcüstanla birlikdə Azərbaycanın tarixi torpaqları olan Qazax, Borçalı, Şəmşəddil sultanlıqları və Pəmbək bölgəsi gürcü quberniyasının tərkibinə daxil edildi. Beləliklə, Azərbaycan torpaqlarının Rusiya imperiyası tərəfindən istilasının əsası qoyuldu.

Rusiya imperiyası 1802-ci ildə Georgiyevsk (Şimali Qafqazda yerləşir, 1802-1822-ci illərdə Qafqaz quberniyasının mərkəzi olmuşdur) şəhərində Şimali Azərbaycan xanlarının (Quba, Dərbənd və Lənkəran) və Qafqazın digər hakimlərinin nümayəndələri ilə "Georgiyevsk" müqaviləsini imzaladı. Müqaviləyə əsasən "onu imzalayanlar öz xahişlərinə görə" Rusiya imperiyasının himayəsinə qəbul olunur, çar Rusiyası isə onların müstəqilliyinə toxunmayacaqlarına, Qacarlar (İran) və Osmanlı (Türkiyə) dövlətlərinin təhlükəsindən onları müdafiə edəcəyinə vəd vermişdi. Lakin Rusiya həmin müqaviləyə əməl etmədi və Azərbaycan xanlıqlarının ərazilərini zəbt etmək üçün hazırlığa başladı.

XIX əsrin əvvəllərində xanlıqlar arasında münasibətlər kəskin olduğundan yeni işğallara şərait yarandı. Ara müharibələri ölkənin sosial-iqtisadi vəziyyətini ağırlaşdırdı. Ölkədə siyasi birliyin olmaması xarici qüvvələrin işğalı üçün əlverişli şərait yaratdı. Hələ I Pyotrun yürüşü zamanı ruslar erməni amilinə xüsusi əhəmiyyət verərək onlardan Azərbaycana qarşı casusluq fəaliyyətində istifadə edirdi. İşğalçılar üçün lazımi casusluq məlumatlarının toplanması üçün ermənilər "xüsusi" fəallıq göstərirdilər. Azərbaycan, Osmanlı (Türkiyə) və Gürcüstan torpaqlarında "böyük Ermənistan" dövləti yaratmaq xülyasında olan ermənilər çar Rusiyasının Qafqazdakı irticaçı (siyasi düşmən, mədəniyyət və tərəqqi düşməni) siyasətinə kömək etməklə məkrli məqsədlərinə çatmağa ümid edirdilər.

1801-ci il Rusiya imperiyası gürcü zadəgan nəslindən olan qəddar, Azərbaycan xalqını, ümumiyyətlə, Cənubi Qafqazın türk-müsəlman əhalisini sevməyən general Sisianovun başçılığı, həmçinin gürcü hakimlərinin dəstəyi ilə Gürcüstan ərazisindən istifadə etməklə Azərbaycanın şimal-qərb torpaqlarını ələ keçirməyə - işğalçılıq planlarını həyata keçirməyə başladı. 1803-cü ilin yazında general Qulyakovun başçılığı altında rus qoşunları Car-Balakəndə yerli əhalinin müqavimətini qırdıqdan sonra Balakəni yandırdılar. Aprelin 12-də Car-Balakəndən olan səlahiyyətli nümayəndə heyəti Car-Balakən camaatlığının Rusiya imperiyasının hakimiyyəti altına alınması barədə "Andlı öhdəlik" (Carlılar Rusiyasının xəzinəsinə ipəklə xərac ödəməli, girovlar verməli, öz ərazisində rus qoşunlarını yerləşdirməli) sənədi imzaladı. Lakin əhalinin itaət şərtlərini yerinə yetirmədiyini bəhanə edən general Qulyakov 1804-cü ilin yanvarında yenidən Cara hücum etdi və Zaqatala yaxınlığındakı dərədə Carlıların güclü müqaviməti ilə üzləşdilər. Qanlı döyüşdə Carlılar qələbə qazandılar və general Qulyakov öldürüldü. Carlılar yenidən hücuma keçmiş rus qoşunlarına müqavimətin mənasız olduğunu görərək mübarizəni dayandırdılar. Car-Balakənin işğalından sonra qonşu İlisu sultanlığı da Rusiya imperiyasının təbəəliyini qəbul etməli oldu.

Car-Balakən camaatlığı çar hökuməti tərəfindən işğal edildikdən sonra general Sisianov Azərbaycanın içərilərinə doğru sonrakı irəliləyişinin açarının Gəncə xanlığının ələ keçirilməsində görürdü. 1804-cü il yanvarın 2-dən 3-nə keçən gecə rus qoşunları qalaya hücuma başladılar. Böyük rəşadətlə qeyri-bərabər döyüşə girən Cavad xan və onun oğlu Hüseynqulu ağa döyüşlərdə qəhrəmancasına həlak oldular. Qanlı döyüşlərdən sonra Gəncə qalası rus qoşunları tərəfindən işğal edildi, Gəncə xanlığı ləğv olundu və şəhərin qədim adı dəyişdirilərək I Aleksandrın arvadının şərəfinə Yelizavetpol adlandırıldı. Gəncənin süqutundan sonra Samux hakimi də Rusiya imperiyasının təbəəliyini qəbul etməyə məcbur oldu.

Gürcüstanın, Şimali Azərbaycanın bir hissəsinin Rusiya imperiyası tərəfindən işğalı Qacarlar və Osmanlı dövlətlərinin, habelə Cənubi Qafqazda möhkəmlənməyə çalışan İngiltərə və Fransanın narahatlığına səbəb oldu. Fətəli şah Qacar (Qacarlar dövlətinin şahı) əvvəlcə Gürcüstan və Gəncə ilə həmsərhəd olan bütün xanlıqların ərazilərini tabe etmək niyyətində idi. Lakin Qacarlar dövlətinin daxilində baş vermiş çaxnaşmalar və İngiltərənin vəd etdiyi köməyi göstərməməsi bu tədbirləri yarımçıq qoydu. Bununla belə, İngiltərə Qacarlar dövlətini Rusiya imperiyası ilə müharibəyə qızışdırırdı.

1804-cü ilin mayında Qacarlar dövləti çar Rusiyasından öz qoşunlarını Cənubi Qafqazdan çıxarmasını tələb etdi. Tələb rədd olundu və 1804-cü ilin iyulunda 10 il davam edən Rusiya-Qacarlar müharibəsi başlandı. Azərbaycanın bəzi feodal hakimləri, habelə feodalların da bir hissəsi öz hakimiyyətlərini itirməkdən qorxaraq, müharibəyə xilas yolu kimi baxırdılar. Qacarlar dövlətinin qalib gələcəyi təqdirdə öz hakimiyyətlərini saxlayacaqlarını düşünərək, imkan daxilində ona kömək göstərirdilər. Əhali isə nə Qacarların, nə də Rusiya imperiyasının istilasına məruz qalmaq istəmir, öz xanlarına müraciət edərək, istilaçılara qarşı mübarizədə onlara hər cür kömək göstərəcəyini bildirirdi.

Qarabağ xanı İbrahimxəlil xan xanlığının müstəqilliyini qoruyub saxlamaq üçün çar Rusiyasına meyil edirdi. O, Qacarların qoşunlarının hücumunun qarşısını almaq üçün Sisianovdan hərbi kömək istədi. Qarabağ xanının Rusiya imperiyası ilə yaxınlaşmasından həyəcana düşmüş Qacarlar dövləti 500 nəfərlik dəstəni Qarabağa göndərdi. Lakin İbrahimxəlil xan dəstəni məğlub etdi. Xanın bu qələbəsindən sonra Sisianov Qarabağa mayor Lisaneviç başda olmaqla hərbi dəstə göndərdi. Eyni zamanda o, xanın Rusiya imperiyasının təbəəliyinə keçməsini tələb etdi. İbrahimxəlil xan xanlığını qoruyub saxlamaq məqsədilə Sisianovla görüşməyə razılıq verdi. General Sisianov və İbrahimxəlil xan Gəncə yaxınlığındakı Kürəkçayın sahilində 1805-ci il mayın 14-də müqavilə imzaladılar. Müqaviləyə əsasən xan, onun varisləri və xanlığın bütün əhalisi Rusiya imperiyasının təbəəliyinə qəbul olunur və onların üzərinə rus çarına sadiq qalmaq tələbi qoyulurdu. Xan rus qarnizonunu Şuşaya buraxmağı və onu zəruri şeylərlə təmin etməyi, hər il öz gəlirlərindən Rusiya imperiyasının xəzinəsinə 8 min çervon xərac ayırmağı öhdəsinə götürdü. Bir həftə sonra İbrahimxəlil xanın vasitəçiliyi ilə Rusiya imperiyası Şəki xanlığı ilə də belə bir müqavilə bağladı. Həmçinin bu xanlıqlar müstəqil xarici siyasət yürütməkdən məhrum oldular.

### İşğala aparan yol. Gülüstan və Türkmənçay müqavilələri

Hər dəfə xalqımızın faciələri, ərazilərinin işğalı səbəbləri araşdırarkən belə bir qənaət yaranır ki, tariximizin bütün qanlı səhifələri Azərbaycanın Rusiya imperiyası ilə Qacarlar dövləti (Rusiya və İran) arasında bölüşdürülməsinə gətirib çıxarmış Gülüstan və Türkmənçay müqavilələrindən başlayır. Rusiya imperiyasının Azərbaycana qarşı ekspansionist siyasəti rəsmən 1804-1813-cü illər Rusiya-Qacarlar müharibəsi ilə başlayır. 1805-ci ildə Azərbaycanın Qarabağ və Şəki xanlıqları ilə Rusiya imperiyasına ilhaqından sonra həmin ilin axırlarına doğru Bakı və Şirvan xanlıqları da rus qoşunları tərəfindən işğal edilir. Talış xanlığının işğalı ilə Rusiya imperiyasının Şimali Azərbaycanı tamamilə özünə ilhaq etməsi prosesi başa çatır. Bu mərhələ başa çatdıqdan sonra Qacarlar dövləti çar Rusiyası ilə müqavilə bağlaması reallaşır və sülh danışıqları başlayır. 1813-cü il oktyabrın 12-də Gülüstan (Goranboy rayonu) kəndində, rus ordugahında məşhur "Gülüstan" müqaviləsi imzalanır. Bu müqavilə Rusiya imperiyasının Azərbaycanı ilhaqını rəsmən təsdiqləyir. Müqaviləyə əsasən, Gəncə, Qarabağ, Şəki, Şamaxı, Quba və Talış xanlıqlarının əraziləri, Şərqi Gürcüstan və Dağıstan da Rusiya imperiyasına ilhaq edilir. Xəzər dənizində donanma saxlamaq hüququ yalnız Rusiya imperiyasına verilir.

19 iyul 1826-cı ildə Fətəli şah Qacarın qoşunlarının Rusiya imperiyasının nəzarətində olan Azərbaycan torpaqlarına daxil olması ilə Rusiya-Qacarlar müharibəsi yenidən başlayır. Döyüşlərdə Qacarın qoşunları ağır məğlubiyyətə düçar olur. 1827-ci ildə Rusiya imperiyası Azərbaycanın ərazilərini işğal edərək Təbriz şəhərinə daxil olur və şəhər rusların əlinə keçir. 1828-ci ilin yanvar-fevral aylarında rus qoşunları Urmiya və Ərdəbili işğal edirlər.

1828-ci il fevralın 10-da İngiltərənin səfiri Makdonaldın vasitəçiliyi ilə Təbriz yolunun üstündə yerləşən Türkmənçay kəndində I Nikolay ilə Fətəli şah arasında 15 maddədən ibarət sülh müqaviləsi imzalandı. Müqaviləyə əsasən, Araz çayı sərhəd olmaqla Azərbaycanın ərazisi şimal və cənub hissələrinə bölündü. Gəncə, Qarabağ, Şəki, Şirvan, Quba, Bakı, Talış xanlığı, Şərqi Gürcüstan və Dağıstan (Azərbaycanın şimal torpaqları) çar Rusiyasına təslim edildi. Türkmənçay müqaviləsi XIX əsrin birinci otuz ilində baş vermiş Rusiya-Qacarlar müharibələrinə son qoydu, xalqımızın və torpaqlarımızın bu dövlətlər arasında iki yerə bölüşdürülməsi başa çatdırıldı. Azərbaycan xalqının iki hissəyə parçalanmasını və müxtəlif imperiyaların tərkibinə qatılmasını rəsmiləşdirən Türkmənçay müqaviləsi xalqımızın sonrakı taleyində də faciəli rol oynadı. İşğal nəticəsində Şimali Azərbaycan torpaqları Rusiya imperiyasının xammal mənbəyinə və satış bazarına çevrildi. 1828-ci ilin martın 21-də İrəvan və Naxçıvan xanlıqları ləğv edildi və həmin ərazilərdə erməni vilayəti adlı qondarma bölgə yaradıldı. Müqavilənin 15-ci maddəsinə əsasən, erməni əhalisinin Qacarlar dövlətindən (İran) Cənubi Qafqaza hərəkətinə icazə verildi. Nəhayət, ən başlıcası o idi ki, Şimali Azərbaycan çar Rusiyasının ucqar müstəmləkəsinə çevrildi. Cənubi Azərbaycan torpaqları isə Qacarlar dövlətinin hakimiyyəti altında qaldı.

Rusiya imperiyası şimali Azərbaycan torpaqlarında ərazi-inzibati dəyişikliyi həyata keçirərək Dərbəndi özünə birləşdirdi, Borçalını Gürcüstana, İrəvanı, Zəngəzuru, Göyçəni və Dərələyəzi ermənilərə verdi. Nəticədə Azərbaycan torpaqları hesabına sonralar Ermənistan dövləti yaradıldı. Ermənilər Türkmənçay müqaviləsinin şərtlərindən çox məmnun idilər. Tarixçilər erməniləri Türkmənçayın övladları adlandırırdılar, çünki Türkmənçay müqaviləsindən əvvəl ermənilər vətənsiz olublar. Erməni tarixçisi Anahid Terminasın qeyd etdiyi kimi, "ermənilər 1917-ci ilədək Qafqazın heç bir məntəqəsində çoxluq təşkil etməmişlər və onların müəyyən bir əraziləri də yox idi". O vaxtdan bəri Azərbaycan tarixinin hər səhifəsində ermənilərin axıtdığı qanın izi var. Erməni terrorçuları havadarlarına arxalanaraq bütün dövrlərdə Cənubi Qafqazda, o cümlədən Azərbaycanda qan tökmüş torpaqlarımızı zəbt etmişlər. Adı "sülh müqaviləsi" olsa da, Türkmənçayın kəsdiyi yerdən hələ də Azərbaycanın qanı axır.

Hamımızın Azərbaycan adlı bir Vətəni var! Qoynunda dünyaya göz açdığımız, minbir nemətindən dadıb isti qucağında boya-başa çatdığımız bu əvəzolunmaz diyar azərbaycanlı adını qürur və iftixarla daşıyan hər kəs üçün müqəddəs və ülvidir. Azərbaycan Respublikasının Prezidenti Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu Vətən müharibəsində və antiterror əməliyyatında Zəfər çalaraq erməni işğalçılarını kapitulyasiyaya məcbur etdi, düşməni qovaraq ərazi bütövlüyünə nail olmaqla yanaşı Türkmənçay müqaviləsi imzalamış dövlətlərə də layiqli cavabını verdi. Bununla da Azərbaycan yeni inkişaf dövrünə qədəm qoydu.

Bu dövrdə dünyada mürəkkəb və ziddiyyətli proseslər davam etməkdədir. Hələ də dünyada ədalətsizliklər mövcuddur. Hələ də dünyada güclülər zəiflərin haqqını tapdalamaq istəyir. Odur ki, biz daima güclü olmalıyıq. Güclü olmağın əsas şərti isə döyüş və ictimai-siyasi hazırlıq məşğələlərində hərb işinin sirlərinə yiyələnməli, döyüş texnikasından və silahlardan bacarıqla istifadə etmək üçün öz biliklərini, bacarıqlarını və vərdişlərini daha da təkmilləşdirməli, mənəvi-psixoloji hazırlıqlarını artırmaqdır. Hər bir hərbi qulluqçu dərk etməlidir ki, o öz vəzifə borcunu vicdanla yerinə yetirməklə, döyüş və ictimai-siyasi hazırlıq dərslərində, təlimlərdə hərbi biliklərə dərindən yiyələnməklə, mənəvi-psixoloji və fiziki hazırlığını artırmaqla, intizamlı olmaqla Azərbaycan naminə, onun dünyada yeri, yüksək nüfuzu uğrunda daim mübarizə aparmış olur. Yalnız bu halda anamız Azərbaycanı qoruya, yüksəldə və hamımız üçün qürur mənbəyinə çevirə bilərik.

**İdeoloji Təminat İdarəsi**

## Hərbi texnikalar, silahlar

# MAR556T piyada tüfəngi



MAR556T Türkiyənin "Mertsav" şirkəti tərəfindən istehsal olunan, 5.56x45 millimetrlik NATO kalibrli taktiki piyada tüfəngidir. Xüsusi əməliyyat qüvvələrinin və artan mobillik ehtiyaclarına uyğunlaşdırılmış standart MAR556 modelinin daha kompakt və yüngül quruluşa malik olan versiyasıdır. Silah həm yarımavtomatik, həm də tam avtomatik atəş rejimlərində işləyə bilir.

Silah fırlanan başlıqlı kilidləmə mexanizminə, uzun zərbəli qaz porşeni sistemindən istifadə edən və barıt qazlarının təzyiqi ilə çalışan iş prinsipinə malikdir. Silahın 368 mm uzunluğundakı lüləsi soyuq döymə (Cold Hammer Forging) (lülə istehsalında ən müasir və yüksək keyfiyyətli metodlardan biri hesab olunur) üsulu ilə hazırlanmışdır ki, bu da onun uzun ömürlülüyünü təmin edir.

MAR556T kiçik ölçüləri (kompaktlığı) sayəsində yaxın məsafəli döyüşlərdə və dar məkanlarda yüksək manevr qabiliyyəti yaradır. Uzun zərbəli qaz mexanizmi atəş zamanı geri təpməni azaldır və bu da avtomatik atəş rejimində daha stabil hədəf almağa imkan verir. Silah üst gövdədəki "Picatinny" relsləri sayəsində müxtəlif növ optik cihazlar, lazer tuşlayıcılar və lüləaltı qumbaraatanlar ilə təchiz edilə bilər. Soyuq döymə lüləsi və dayanıqlı qaz sistemi sayəsində müxtəlif iqlim şəraitlərində (həm şiddətli soyuq, həm də çöl şəraitində) effektivliyini qoruyur.



MAR556T tüfəngi üst hissəsindəki "Picatinny" rels sistemi ilə təchiz olunduğu üçün üzərinə çox sayda köməkçi cihaz - optik cihazlar və nişangahlar quraşdırmaq mümkündür. Bu isə silahın müxtəlif hədəfalma vasitələri ilə təchiz edilməsinə əlavə imkanlar yaradır. Bu silah üçün ən çox istifadə olunan təchizatlar aşağıdakılardır:

- Reflex və Red Dot - yaxın məsafəli döyüşlərdə sürətli hədəf almaq üçün (məsələn, Aimpoint və ya Holosun tipli);
- Böyüdücü (magnifier) - Red Dot-un arxasına quraşdırılaraq 3x və ya 5x böyütmə təmin edir ki, bu da orta məsafədə effektivliyi xeyli dərəcədə artırır;
- Holoqrafik nişangahlar - şəhər döyüşlərində geniş baxış bucağı təmin edir (EO Tech kimi);
- ACOG tipli nişangahlar - 400-600 metr məsafədəki hədəfləri daha dəqiq vurmaq üçün.

**Silahın gövdəsinin yan və alt hissələrinə də aşağıdakı taktiki təchizatlar əlavə edilə bilər:**

- gecəgörmə cihazları ilə koordinasiyalı işləmək üçün infraqırmızı (IR) lazer tuşlayıcılar;
- qapalı məkanlarda və ya gecə əməliyyatlarında görməni təmin etmək üçün taktiki fənərlər;
- atəş zamanı silahı daha stabil saxlamaq üçün şaquli və ya bucaqlı ön tutacaqlar (Foregrips).

**Lülə əlavələri:**

- Suppressor (səs boğucu): xüsusi əməliyyatlarda səsi və atəş alovunu gizlətmək üçün tez çıxarılıb-taxılan (QD) modellər istifadə olunur;
- standart olaraq atəş anında yaranan parıltını minimuma endirən alovgizlədən.

**Digər aksesuarlar:**

- istifadəçinin boyuna və geyindiyi zirehli jiletin qalınlığına görə 5-6 fərqli mövqedə tənzimlənə bilən qundaq.
- döyüş zamanı maqazin dəyişmə sürətini artırmaq üçün ikiqat maqazin birləşdiriciləri - "magazine coupler" və ya "dual mag clamp" (iki ayrı maqazini bir-birinə bərkitmək üçün istifadə edilən xüsusi aksesuar).

Silahın çəkisi 3,150 kiloqram, uzunluğu 368 millimetr, lülənin uzunluğu 368 millimetr, ümumi uzunluğu 825 millimetr, daraq tutumu 30 ədəddir.

Silahın yüngül və kompakt konstruksiyaya malik olması onun spesifik tapşırıqlarda istifadəsini asanlaşdırır. MAR556T piyada tüfəngi yüksək manevr qabiliyyəti sayəsində Xüsusi Təyinatlı Qüvvələr və Komando birlikləri üçün şəhər döyüşləri (CQC - Close Quarters Combat) və antiterror əməliyyatları zamanı çox əlverişlidir.

"Azərbaycan Ordusu"

## Maraq dünyamız

# İnsan haqqında maraqlı faktlar

*Digər elmlərlə yanaşı, müasir tibb elmi də sürətlə inkişaf edir. Buna baxmayaraq, canlı aləmin ən mükəmməl varlığı sayılan insanı tam şəkildə öyrənə bilməyib. Lakin insanla bağlı tibb elminin bu vaxta qədər nail olduğu kəşflər, həqiqətən də heyrət doğurur. Bu kəşflərin bir neçəsini təqdim edirik:*

✔ İnsan beynində 1 saniyədə 100 000 kimyəvi reaksiya baş verir.

✔ İnsan ürəyi gündə orta hesabla 100 000 dəfə döyünür.

✔ İnsan bədənindəki damarların uzunluğu 100 000 min kilometrə çatır. Bu uzunluq Yer kürəsini 2,5 dəfə dövr etməyə kifayət edir.

✔ Barmaqlar insanın ömrü ərzində 25 milyon dəfəyə yaxın açılıb-yumulur.

✔ Ana bətnindəki uşaqlar dünyaya gəlməsinə az müddət qalmış musiqi səsinə və yüksək səsə təpik ataraq reaksiya verirlər.

✔ Böyrəklər gün ərzində qanı 300-350 dəfə təmizləyirlər.

✔ İnsanın başında orta hesabla 100 minlə 150 min arasında saç teli olur.

✔ İnsan genləri ilə şimpanze genləri arasında bənzərlik 98,4 faizdir.

✔ 300 sümüklə dünyaya gələn insanda yetkinlik dövründə sümüklərin sayı 206-a düşür.

✔ Diş minası insan bədənində ən sərt maddədir.

✔ İnsan aclıqdan əvvəl yuxusuzluqdan ölür.

✔ Hər min körpədən biri tək dişlə doğulur.

✔ İnsan beyninin yaddaş tutumu 2,5 milyon petabaytdan çoxdur. Bu, 2500500 GB-a bərabərdir.

✔ İnsan tükü hörümçək torundan 20 dəfə qalındır.

✔ Gün ərzində insan bədənindən ayrılan istiliklə 33 litr buzlu suyu qaynatmaq olar.

✔ Sağ əllə yazı yazan insanlar solaxaylara nisbətən 9 il çox yaşayırlar.

✔ Qadınlar kişilərə nisbətən daha çox yaşayır.

✔ İnsan skeleti bütünlükdə 3 aydan bir dəyişir.

✔ Dünyadakı canlılardan düz xətt çəkə bilən yeganə məxluq insandır.

✔ İnsanın öz dirsəyini yalaması anotomik olaraq mümkünsüzdür.

✔ Gülüş zamanı insanın 17 əzələsi işləyir.

✔ İnsanın həyatı boyu başında çıxan tükləri ölçülsə, 725 km edəcək.

✔ İnsan orqanizmində yaşayan bakteriyalar 2 kq təşkil edir.

✔ Uşaqlar diz qapaqsız doğulur, qapaqlar 2-6 yaşında yaranır.

✔ Ağciyərin üzəri 100 kvadrat metrdir. Onun üst qatının sahəsi tennis kortunun sahəsinə bərabərdir.

✔ İnsan beyni gündə dünyadakı bütün telefonlardan daha çox elektrik impuls edir.

✔ İnsanın gün ərzində orta gücü 100 vatt, ürəyinin gücü isə 10 vattdır.

✔ İnsan asqırarkən gözlərinin açıq qalması qeyri-mümkündür.

✔ İnsan ağzında təxminən 40 000 bakteriya var.

✔ Qadınlar kişilərdən 2 dəfə çox göz qırpır.

✔ Hər 20 nəfərdən birində, xüsusən də kişilərdə qabırğaların 1-i artıq olur.

✔ Hər insan həyatı ərzində 22 kiloqram dəri itirir.

✔ Sağlam insanın dırnağının tam inkişafı 4-6 ay davam edir.

# Xəbərlər: hadisələr, faktlar



### Yaponiya, ABŞ və digər ölkələrin 17 mindən çox hərbçisi Filippində təlimlərə başlayıb

ABŞ, Yaponiya və digər ölkələrdən olan 17 mindən çox hərbçi Filippində "Balikatan" təlimlərinə başlayıb. Təlimlərə döyüş atışları da daxildir.

PNA agentliyi bu barədə Filippin Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Romeo Braunerə istinadla məlumat yayıb. Manevrlərə ABŞ, Avstraliya, Kanada, Fransa, Yaponiya və Yeni Zelandiyanın silahlı qüvvələri cəlb olunub. Təlimlər zamanı qoşunlar hava və raketdən müdafiə texnikaları, eləcə də dəniz təhlükəsizliyi, sualtı qayıqlara qarşı mübarizə, düşmən gəmilərinə desant çıxarılması və xilasetmə əməliyyatlarını məşq ediləcəklər.

Agentliyin məlumatına görə, mayın 8-dək davam edəcək manevrlərə 10-dan çox ölkə müşahidəçi qismində cəlb olunub.

### Yaponiyada təlim zamanı tank partlayıb, azı iki hərbçi həlak olub



Yaponiya Özünümüdafiə Qüvvələrinin Oita prefekturasındakı Hijudai təlim poliqonunda tank partlaması nəticəsində ilkin məlumata görə, azı iki hərbçi həlak olub.

Bu barədə "Fuji" telekanalı məlumat yayıb.

Məlumata əsasən, iki hərbçinin öldüyü təsdiqlənib, digəri isə "ürək-ağciyər dayanması" vəziyyətindədir ki, bu da Yaponiyada klinik ölüm kimi qiymətləndirilir. Bundan əlavə, bir qadın hərbçi xəstəxanaya yerləşdirilib.

TBS telekanalının bildirdiyinə görə, hadisə atəş zamanı silahda mərminin partlaması nəticəsində baş verib.



### Pakistan “Taimoor” kruiz raketini uğurla sınaqdan keçirib

Pakistan aprelin 21-də yerli istehsal olan havadan buraxılan kruiz raketinin sınağını uğurla həyata keçirib və bu, dəniz zərbəsi qabiliyyətlərinin artırılmasını nümayiş etdirib.

Pakistan ordusunun İctimaiyyətlə əlaqələr şöbəsinin açıqlamasına görə, Pakistan Hərbi Dəniz Qüvvələri "Taimoor" adlı havadan atılan kruiz raketini uğurla sınaqdan keçirib və onu düşmən gəmilərini uzaq məsafələrdə hədəfə almaq üçün hazırlanmış qabaqcıl gəmi əleyhinə silah sistemi kimi təqdim edib.

Bəyanata görə, raket müstəsna dəqiqlik nümayiş etdirib və donanmanın dəniz əsaslı təhdidləri dəqiqliklə aşkar etmək, mübarizə aparmaq və zərərsizləşdirmək qabiliyyətini təsdiqləyib.

Pakistan hərbiçiləri bildiriblər ki, bu inkişaf dəniz təhlükəsizliyini gücləndirmək və ölkənin suveren sularını qorumaq üçün davam edən səyləri əks etdirir. Bəyanata görə, Pakistanın siyasi və hərbi rəhbərliyi proqramda iştirak edən alim və mühəndisləri təbrik edib, bu sınağı ölkənin müdafiəsinin möhkəmləndirilməsində böyük bir mərhələ adlandırıb.

**AZƏRTAC-ın materialları əsasında**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Muxtarova Ramilə Elşən qızına verilmiş AD № 0029876 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

| Redaktor | Telefon | Ünvanımız | Qəzetin hesabı | | Növbətçi | |
|---|---|---|---|---|---|---|
| mayor Ceyhun CƏFƏRLİ | Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatı üzrə növbətçi: (012) 404-76-22 | Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi | 2 saylı Xəzinədarlıq Kod: 200189 VÖEN: 1500444791 | “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz. | baş leytenant Əli ABIYEV | Lisenziya № 361 Sifariş № 409 Nüsxə 3653 |